# PEDAQOJİ PEŞƏKARLIĞIN İNKİŞAFI TƏLİMİNİN TƏŞKİLİ HAQQINDA METODİK TÖVSİYƏ

Samir Cavadlı
Aydan Qədimli
Samirə Məmmədova
İlhamə Cəfərova

I nəşr

BAKI 2025

**Azərbaycan Tibb Universiteti**
**Tibb və sağlamlıq elmləri təhsili kafedrası**

**Samir Cavadlı, Aydan Qədimli,**
**Samirə Məmmədova, İlhamə Cəfərova**

# PEDAQOJİ PEŞƏKARLIĞIN İNKİŞAFI TƏLİMİNİN TƏŞKİLİ HAQQINDA METODİK TÖVSİYƏ

(Tibb və sağlamlıq elmləri sahəsində
pedaqoji fəaliyyətlə məşğul olanlar üçün vəsait)

**I NƏŞR**

Azərbaycan Tibb Universitetinin
Elmi Şurasının 29 Aprel 2025-ci il tarixli
qərarı ilə (protokol №9) nəşr olunmuşdur

**BAKI 2025**

“Pedaqoji peşəkarlığın inkişafı təliminin təşkili haqqında” metodik tövsiyə, Bakı, “Təbib” nəşrıyyatı, 2025, 40 səh.

**Müəlliflər:** Dosent, t.ü.f.d. Samir Sabir oğlu Cavadlı
Baş müəllim Aydan İsrafil qızı Qədimli
Baş müəllim Samirə Şahin qızı Məmmədova
Assistent İlhamə Məmməd qızı Cəfərova

**Rəyçilər:** Zərifə Məmmədova – ATU-nun Tibb və sağlamlıq elmləri təhsili kafedrasının assistenti

Bu metodik tövsiyədə tibb və sağlamlıq elmləri təhsilində pedaqoji səriştəliyin artırılması üçün təşkil edilən təlimlərin ümumi xüsusiyyətləri, təlimin məqsəd və vəzifələri, təlimin modulları, mövzuları, təlimə hazırlanma dövrü, texnikaları və qiymətləndirilməsi haqqında məlumatlardan bəhs edilir. Təqdim olunan vəsait tibb və sağlamlıq elmləri sahəsində təhsilverənlərlə yanaşı digər pedaqoji fəaliyyətlə məşğul olan təlimçilər üçün də faydalı ola bilər.

9 789952 858747    9 789952 858792

Bütün hüquqlar qorunur
© Azərbaycan Tibb Universiteti

## MÜNDƏRİCAT


**ÖN SÖZ ... 4**

**I FƏSİL. PEDAQOJİ PEŞƏKARLIĞIN İNKİŞAFI TƏLİMİNİN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ ... 6**

**BÖLÜM 1. GİRİŞ ... 6**

1.1 Pedaqoji peşəkarlığın mahiyyəti və aktuallığı ... 6
1.2 Akademik inkişafın rolu və beynəlxalq yanaşmalar ... 6
1.3 WHO və UNESCO-nun kompetensiya çərçivələri ... 7
1.4 Təlimin məqsədi və istifadə dairəsi ... 9
1.5. Təlimin strateji əhəmiyyəti və transformativ funksiyası ... 10

**BÖLÜM 2. TƏLİM PROQRAMININ STRUKTURU ... 11**

**2.1. Təlim proqramı ... 11**
**2.2. Təlim mühiti ... 17**
**2.3. Kurs sonunda qiymətləndirmə ... 19**

**II FƏSİL. PEDAQOJİ PEŞƏKARLIĞIN İNKİŞAFI TƏLİMİ STRUKTURLAŞDIRILMIŞ PROQRAMI ... 21**

**BÖLÜM 1. GİRİŞ ... 21**

1.1. Sessiyaların ümumi məqsədi ... 22
1.2. Təlim yanaşması və metodları ... 22
1.3. Sessiyaların planlaşdırılması prinsipləri ... 22

**BÖLÜM 2. TƏLİMİN MƏZMUN STRUKTURU ... 23**

2.1. Təlimin əsas mövzuları ... 23
2.2. Sessiyalar ... 24
Sessiya 1. Təlimin Açılışı və Tanışlıq ... 24

**Təlim proqramının tərtibi və tətbiqi ... 27**

Sessiya 2. Tədris Proqramının Planlaşdırılması ... 27
Sessiya 3. Tədris Metodları və Sinif İdarəetməsi ... 29
Sessiya 4. Qiymətləndirmə və dəyərləndirmədə ... 31
Sessiya 5: Qiymətləndirmə metodları ... 33

**BÖLÜM 3. TƏLİMİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ**

**ÜZRƏ BƏLƏDÇİ: YENİ TƏLİMÇİLƏR ÜÇÜN TÖVSİYƏLƏR ... 36**

3.1. Təlimə hazırlıq mərhələsi ... 36
3.2. İştirakçılarla ilk əlaqə: Təəssürat yaratmaq ... 37
3.3. Sessiyanın effektiv aparılması ... 37
3.4. Rəyvermə və öyrənmənin qiymətləndirilməsi ... 37
3.5. Çətinliklərin öhdəsindən gəlmək ... 38

**İstifadə olunan ədəbiyyat siyahısı ... 39**

# ÖN SÖZ

Pedaqoji peşəkarlığın artırılması üçün təşkil olunan təlimlərin təşkili və həyata keçirilməsi prosesinə dair hazırlanan metodik tövsiyyə Azərbaycan Tibb Universitetində təşkil olunan təlimin proqramına uyğun hazırlanmışdır. Vəsaitdə təlimə dair iki modul və on səkkiz sessiya yer alır.

Təqdim olunan metodik tövsiyədə tibb təhsilinin xüsusiyyəti, dünyada qəbul olunmuş təhsil modelləri, bu modellərin müqayisəli xarakteristikası, təhsil proqramlarının hazırlanması, proqram modelləri, müasir tədris üsulları, qiymətləndirmə-dəyərləndirmə haqqında məlumat verilmişdir.

Nəzəri məlumatlarla yanaşı təlimdə istifadə olunan müxtəlif tətbiqlər, qrup işləri də yer alır.

Ümid edirik ki, bu vəsait tibb və səhiyyə sahəsində təhsilverənlər və təlimçilər üçün faydalı olacaqdır. Vəsaitdə rast gəlinən qüsurlarla bağlı təklif və iradlar müəlliflər tərəfindən minnətdarlıqla qarşılanacaq və sonrakı nəşrlərdə nəzərə alınacaqdır.

***Müəlliflər***

## QISALDILMIŞ TERMİNLƏR

| Qısaltma | İzahı |
|---|---|
| **ATU** | Azərbaycan Tibb Universiteti |
| **DOPS** | Direct Observation of Procedural Skills (Klinik Bacarıqların Birbaşa Müşahidəsi) |
| **Mini-CEX** | Mini – Clinical Evaluation Exercise (Mini – klinik qiymətləndirmə) |
| **OSKİ (OSCE)** | Obyektiv Strukturlaşdırılmış Klinik İmtahan (Objective Structured Clinical Examination) |
| **PPİT** | Pedaqoji peşəkarlığın inkişafı təlimi |
| **ToT** | Training of Trainers (Təlimçinin təlimi) |
| **TSET** | Tibb və sağlamlıq elmləri təhsili kafedrası |
| **ÜST** | Ümumdünya Səhiyyə Təşkilatı |

# I FƏSİL. PEDAQOJİ PEŞƏKARLIĞIN İNKİŞAFI TƏLİMİNİN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ

## BÖLÜM 1. GİRİŞ

### *1.1 Pedaqoji peşəkarlığın mahiyyəti və aktuallığı*

Professor-müəllim heyətinin fəaliyyət spektrinə daxil olan tədqiqat aparmaq, klinik xidmət göstərmək və təhsilvermə kimi rollar arasında pedaqoji fəaliyyət uzun müddət diqqətdən kənarda qalmışdır. Çox vaxt akademik yüksəliş və peşəkar dəyər tədqiqat məhsuldarlığı və klinik göstəricilərlə ölçüldüyündən, təhsilverənlərin pedaqoji səriştələrinin inkişafı ikinci planda qalır. Bu da o deməkdir ki, klinik və elmi cəhətdən yüksək ixtisaslaşmış mütəxəssislər belə, effektiv öyrətmə strategiyaları, tələbə motivasiyası və qiymətləndirmə metodları sahəsində yetərli hazırlığa malik olmaya bilərlər. Bu boşluq isə, tədrisin keyfiyyətinə və tələbə nəticələrinə birbaşa mənfi təsir göstərir və məhz bu səbəbdən təhsilvermə bacarıqlarının sistemli şəkildə inkişaf etdirilməsi zəruri hesab olunur.

Pedaqoji peşəkarlığın inkişafı proqramları – digər adı ilə akademik inkişaf (faculty development) proqramları – bu ehtiyacı qarşılayan əsas alətlərdən biridir. Bu proqramlar, yalnız təlimçilərin pedaqoji bacarıqlarını artırmaqla qalmır, eyni zamanda tədris mühitini canlandırır, tələbəmərkəzli yanaşmanı təşviq edir və təhsil müəssisəsinin strateji inkişafına töhfə verir.

### *1.2 Akademik inkişafın rolu və beynəlxalq yanaşmalar*

Müasir pedaqoji inkişaf proqramları beynəlxalq çərçivələrə və sübutlara əsaslanaraq, yerli ehtiyaclara uyğunlaşdırılmış şəkildə tətbiq olunmalıdır. Dünya Səhiyyə Təşkilatının (WHO) 2021-ci ildə təqdim etdiyi “Səhiyyə Təhsilverənləri üçün Səriştə Çərçivəsi”, CanMEDS-in “Scholar” və “Communicator” rolları, UNESCO-nun Müəllimlər üçün İKT Səriştə Modeli və Kern kurikulum planlaşdırma modeli bu təlimatın nəzəri və metodoloji dayaqlarını təşkil edir. Beləliklə, “Pedaqoji Peşəkarlığın İnkişafı” təlimi tibb və sağlamlıq elmləri təhsili müəssisələrində çalışan təhsilverənlərə pedaqoji bilik, bacarıq və vərdişlər qazandırmaqla yanaşı, onlara öyrənmə

mühitinin təşkili, tələbə performansının qiymətləndirilməsi və fasilitator rolunun effektiv icrası üzrə dəstək verir.

Azərbaycan kontekstində bu təlimatın hazırlanması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması və yerli səhiyyə sistemində keyfiyyətli insan kapitalının inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Bu sənəd təkcə texniki istiqamətləndirmə bələdçisi deyil, həm də təlim mədəniyyətinin formalaşdırılmasına yönəlmiş inkişaf çərçivəsidir.

Səhiyyə sisteminin təməl dayaq nöqtələrindən biri olan tibb və sağlamlıq elmləri təhsili, yalnız bilik ötürməyə yönəlmiş sadə bir proses deyil, həm də peşəkar kimliyin, etik münasibətlərin, sosial cavabdehliyin və ömürboyu öyrənmə mədəniyyətinin formalaşdığı mürəkkəb pedaqoji sahədir. Bu mənada, tibb və sağlamlıq elmləri sahəsində fəaliyyət göstərən akademik heyətin pedaqoji bacarıqlarının artırılması, tədrisin keyfiyyətinə və tələbə nəticələrinə birbaşa təsir göstərir.

Ənənəvi təlim yanaşmaları və müəllim mərkəzli metodlar artıq müasir tələbləri tam qarşılamır. Tələbə mərkəzli, nəticəyönümlü və sübutlara əsaslanan tədris modellərinin həyata keçirilməsi üçün təhsilverənlərin yalnız fənn bilikləri ilə deyil, həm də müasir pedaqoji səriştələrlə silahlanması zəruridir. Bu səriştələrə kommunikasiya bacarıqları, qiymətləndirmə metodologiyası, reflektiv təlim təcrübəsi, interaktiv tədris strategiyaları və inklüziv öyrənmə mühiti yaratmaq bacarığı daxildir.

### *1.3 WHO və UNESCO-nun kompetensiya çərçivələri*

Beynəlxalq təcrübədə "Faculty Development" kimi tanınan Pedaqoji Peşəkarlığın İnkişafı proqramları, akademik heyətin pedaqoji və didaktik potensialının gücləndirilməsi üçün sistemli yanaşma təqdim edir. Dünya Səhiyyə Təşkilatının (WHO, 2021) Səhiyyə Təhsilverənləri üçün Səriştə Çərçivəsində vurğulanan 7 əsas kompetensiya (Şəkil 1) bu proqramların əsas strukturunu təşkil edir.
Eyni zamanda, CanMEDS modelinin "Scholar" və "Communicator" rolları və UNESCO-nun (2018) Müəllimlər üçün İKT Səriştə Çərçivəsi (Şəkil 2) bu təlim proqramlarının müasir yanaşmalarla inteqrasiyasını gücləndirir.




*Şəkil 1. ÜST-ə görə Səriştə Çərçivəsi*

Tibb və sağlamlıq elmləri təhsili yalnız bilik və bacarıqların deyil, eyni zamanda təcrübənin, dəyərlərin və humanist münasibətin də ötürüldüyü bir prosesdir. Bu baxımdan, təhsilverənlərin bu rolları şüurlu şəkildə mənimsəməsi və tələbəyə yönəlik metodikaları seçə bilməsi, təhsil nəticələrini yüksəltməklə yanaşı, səhiyyə sistemində insan mərkəzli yanaşmanın formalaşmasına da töhfə verir.

| Sahə | Səviyyə 1: Bilik əldə etmə | Səviyyə 2: Bilik dərinləşdirmə | Səviyyə 3: Bilik yaradılması |
|---|---|---|---|
| **1. Təhsildə İKT-nin rolunu anlama** | Təhsil siyasəti haqqında ümumi anlayış | Təhsil siyasətinin tətbiqi | Təhsil siyasətinə innovasiya və töhfə |
| **2. Kurrikulum və qiymətləndirmə** | Əsas bilik | Bilik tətbiqi | Rəqəmsal əsr bacarıqları |
| **3. Pedaqoji tədris** | İKT ilə tədrisin inteqrasiyası | Kompleks problem həlli | Özünüidarəetmə, yaradıcı metodlar |
| **4. Rəqəmsal bacarıqların tətbiqi** | Alətlərin istifadəsi | İnteqrasiya | Transformasiya yönümlü tətbiqlər |
| **5. Təşkilat və idarəetmə** | Standart sinif mühiti | Qrup əməkdaşlığı | İnnovativ və çevik qurum modelinin tətbiqi |
| **6. Müəllimin peşəkar inkişafı** | Rəqəmsal savadkarlıq | Şəbəkələşmə | Müəllim-innovator rolu |

*Şəkil 2. UNESCO-nun İKT Səriştə Çərçivəsi*

Ümumi olaraq, proqramın strukturlaşdırılması, məzmunu və məqsədi aşağıdakı beynəlxalq səriştə çərçivələrinə uyğunlaşdırılmışdır:

- ÜST-nın (2021) səhiyyə sahəsində təhsil verənlər üçün səriştələr çərçivəsinin (WHO Health Educator Competency Framework) 7 əsas səriştə (Məqsədyönlülük, Planlama, Əlaqələndirmə, Təlimçilik bacarığı, Kommunikasiya, Qiymətləndirmə və Davamlı inkişaf) sahəsinə uyğun təlim modullarının əlaqələndirilməsi
- CanMEDS Framework (Royal College of Physicians and Surgeons of Canada): Müəllimlər üçün "Scholar" və "Communicator" rollarının inkişaf etdirilməsi
- UNESCO ICT CFT (2023): Rəqəmsal pedaqogika və texnologiya ilə tədrisin inteqrasiyası. Təlimdə texnologiyanın etik və effektiv istifadəsi.
- Kern Proqram Təkmilləşdirmə Modeli: Təlimin sistemli ehtiyaclarının təhlilindən başlayaraq, davamlı refleksiyaya qədər mərhələli planlanması.

### *1.4 Təlimin məqsədi və istifadə dairəsi*

Azərbaycan səhiyyə təhsilində də bu çağırışlara cavab vermək məqsədilə son illərdə pedaqoji inkişaf proqramlarının tətbiqinə artan maraq müşahidə olunur. Lakin bu proqramların sistemli şəkildə planlaşdırılması, tətbiqi və davamlılığının təmin olunması hələ də inkişaf mərhələsindədir.

"Pedaqoji Peşəkarlığın İnkişafı" təlim proqramı bu ehtiyaca cavab olaraq hazırlanmış, beynəlxalq standartlara əsaslanmış və yerli reallıqlara uyğunlaşdırılmış praktik bir bələdçidir.

Bu təlimatın məqsədi yalnız tədris bacarıqlarını öyrətmək deyil, həm də təhsil mədəniyyəti yaratmaq, təlimçilər arasında ortaq anlayış formalaşdırmaq və tibb təhsilində fasilitator rolunun sistemli inkişafını təmin etməkdir. Belə yanaşma təhsil müəssisəsinin strateji məqsədləri ilə uzlaşmaqla yanaşı, təhsilverənin fərdi inkişaf yolunu da dəstəkləyir.

Tibb və sağlamlıq elmləri sahəsində təhsil verən müəssisələrin akademik inkişaf proqramlarını tərtib etmələri, həyata keçirmələri və qiymətləndirmələri, eləcə də bu proqramların sistemli şəkildə davamlılığını təmin etmələri zəruridir.

## *1.5. Təlimin strateji əhəmiyyəti və transformativ funksiyası*

### *1.5.1. Təlimin transformativ məqsədi*

Pedaqoji Peşəkarlığın İnkişafı Təlimi yalnız texniki bacarıqların ötürülməsi deyil, **təhsilverənin peşəkar kimliyinin formalaşması** və **təlim–tədris münasibətlərində transformasiya** məqsədi daşıyır. Təlim iştirakçılarda aşağıdakı dəyişikliklərə yol açmalıdır:

- Ənənəvi müəllim imicindən **öyrənməni yönəldən fasilitator** kimliyinə keçid
- Özünüdəyərləndirmə və reflektiv düşüncə vərdişlərinin formalaşması
- Təhsil innovasiyalarına **adaptasiya bacarığının artırılması**
- Tələbə mərkəzli yanaşmaya keçid

### *1.5.2. Təlimin akademik və təşkilati rolu*

Bu təlim proqramı:

- Tədris bacarıqlarını akkreditasiya və keyfiyyət təminatı baxımından gücləndirir;
- Müəllim heyətinin akademik liderlik potensialını inkişaf etdirir;
- Təhsil sistemində mədəni dəyişiklikləri təşviq edir – yəni bilik ötürən deyil, öyrənməni stimullaşdıran bir mühitin formalaşmasına zəmin yaradır.

### *1.5.3. Millləşdirmə və məzmun uyğunluğu*

Bu təlim proqramı Azərbaycan səhiyyə və təhsil sisteminin spesifik ehtiyaclarına uyğunlaşdırılmışdır. Məsələn:

- Azərbaycanda tibb təhsilverənlərinin ənənəvi müəllimlik yanaşmasından **səriştə əsaslı və inteqrativ təlimçi roluna keçidi**

- Tibb təhsili verən müəssisələrdə tədris edən praktik həkimlərin pedaqoji hazırlığının zəifliyi səbəbindən **strukturlaşdırılmış təlim ehtiyacının qarşılanması**
- Qadın təlimçilərin rol modellik etməsinin təşviq olunması və gender bərabərliyinə töhfə

Azərbaycanda da bu sahədə fəaliyyətlərə 2020-ci ildən etibarən COVID-19 pandemiyası əleyhinə tədbirlər çərçivəsində ÜST-n dəstəyi ilə başlanılmışdır. Həyata keçirilən ToT proqramları iştirakçıları tədris etmə səriştələrini artırmaq və öz qurumlarında dəyişiklikləri başlatmaq və təlimləri müntəzəm olaraq davam etdirmək məqsədilə bu proqramlara qoşulmuşdurlar. Eləcə də ATU-un bir qrup əməkdaşı ilk gündən davamlı olaraq ToT proqramlarında iştirak edərək sertifikat almış, yüksək tədris etmə bacarıqlarına malik, öyrətməyə həvəsli olan dəyişimin liderləri olaraq öz müəssisələrində də bu təlimi  həyata keçirməyə hazır vəziyyətə gəlmişdirlər.

Bu təlimat sizə ATU-nin Tibb və sağlamlıq elmləri təhsili kafedrasında həyata keçirilən Pedaqoji peşəkarlığın inkşafı təlimi (PPİT) proqramının məzmunu, metodu, tətbiqi, material və qiymətləndirilməsi üçün çərçivə təqdim edir.

## BÖLÜM 2. TƏLİM PROQRAMININ STRUKTURU

Pedaqoji peşəkarlığın inkşafı təlimi proqramı tibb və sağlamlıq elmləri təhsilverənlərinin səriştələrinə əsaslanan müxtəlif nəzəriyyə və yanaşmaların çoxluğunu nəzərə alaraq hazırlanmışdır. Yetişkin şəxslərin öyrənməyə yanaşması, koqnitiv və konstruktivist nəzəriyyələrin əks olunması proqram boyu izlənilə bilər.

### 2.1. Təlim proqramı

Təqdim olunan metodik vəsait diplomdan əvvəl, diplomdan sonra və ömürboyu təhsil səviyyələrini əhatə edən, bütün tibb və sağlamlıq elmləri sahəsində təhsilverənlər üçün asanlıqla tətbiq oluna bilən təməl səviyyədə pedaqoji peşəkarlığın inkişafı proqramıdır. Türkiyə və dünyanın digər qabaqcil tibb təhsili müəssisələrinin təcrübələri, bu sahədə mövcud olan təşkilatların tövsiyələri araşdırılaraq məzmun, metod və müddət kimi ümumi xüsusiyyətləri və

öyrənənlərin ehtiyacları da nəzərə alınmaqla proqram Azərbaycan təhsil sisteminə uyğun hazırlanmışdır.

Tibb və sağlamlıq elmləri təhsilverənləri üçün təlim proqramı KERN*-in proqram təkmilləşdirmə modelinin mərhələləri istinad götürülərək üç əsas modul üzərində qurulmuşdur.

**Modul 1.**

Tibb və sağlamlıq elmləri təhsilində öyrənmə və öyrətmə: Keçmişdən bu günə tibb təhsilində baş verən dəyişikliyin model, metod, mənbə və vəsaitlərə necə əks olunduğundan bəhs edir. Tibb təhsilindəki dəyişikliyi öyrənmə, tədris etmə və təhsil anlayışlarındakı dəyişmə ilə əlaqələndirərək, öyrənmənin necə baş verdiyi və tədris üçün effektiv nüansların nələr ola biləcəyi müzakirə edilir.

**Modul 2.**

Tədris proqramının təkmilləşdirilməsi: Proqramın təkmilləşdirilməsi prosesindəki hər bir addımla əlaqəli bilik, bacarıq və davranış əldə etməyə imkan verəcək mövzulardan bəhs edir. Ehtiyacların müəyyən edilməsi, məqsəd və vəzifələrin müəyyənləşdirilməsi, tətbiqetmə imkanları, tədris metodları, qiymətləndirmə və proqram dəyərləndirmə üsullarında baş verən mövcud yeniliklər iştirakçılarla paylaşılır.

**Modul 3.**

Tədris proqramının dəyərləndirilməsi: Proqram dəyərləndirmə prosesindəki hər bir addımla əlaqəli bilik, bacarıq və davranış sahələrinin qiymətləndirmə və dəyərləndirməsindən bəhs edir.

### *2.1.1. Proqramın məqsədi*

Pedaqoji peşəkarlığın inkşafı təlimi (PPİT) proqramının məqsədi tibb və sağlamlıq elmləri sahəsində tədris fəaliyyətində iştirak

---

* Kern modeli tibb təhsilində ehtiyaclara əsaslanan sistemli təlim proqramı hazırlamaq üçün geniş qəbul olunmuş altı mərhələli metodoloji çərçivədir. Bu model David E. Kern və həmkarları tərəfindən inkişaf etdirilmişdir və təlimin məqsədyönlü, praktik və kontekstə uyğun şəkildə planlaşdırılmasına xidmət edir. Modelin mərhələləri aşağıdakılardır: (1) Ümumi ehtiyacların təhlili, (2) Hədəf qrupa aid ehtiyacların təhlili, (3) Məqsəd və hədəflərin müəyyən edilməsi, (4) Tədris strategiyalarının və metodlarının seçilməsi, (5) Proqramın tətbiqi, (6) Qiymətləndirmə və rəy. Bu mərhələli yanaşma təlimin həm məzmun baxımından məqsədəuyğun, həm də icra baxımından sistemli olmasına imkan yaradır. Azərbaycanda həyata keçirilən pedaqoji inkişaf təlim proqramlarının qurulmasında bu modelin mərhələlərinə əsaslanmaq, beynəlxalq keyfiyyət standartlarına uyğunluğu təmin edir və təlimin effektivliyini artırır.

edən müəllimlərin tədris bacarıqlarını təkmilləşdirməkdir. Bu təlim tibb və sağlamlıq elmləri təhsili üzrə professor-müəllim heyətinin və/və ya müəssisədə çalışan klinik təhsilverənlərin inkişafının təmin edilməsinə yönəlməklə, son nəticədə tədris proqramlarını və proseslərini gücləndirməklə tibb təhsilinin keyfiyyətini artırmaq, bu sahədə tədris yanaşmalarını (tələbə mərkəzli, səriştə əsaslı, cəmiyyətə yönəlmiş, xəstə təhlükəsizliyinə yönəlmiş) və onların məzmununu yeniləmək məqsədi daşıyır.

### *2.1.2. Proqramın öyrənmə hədəfləri*

Proqramın sonunda iştirakçılar aşağıdakı bacarıqlara malik olacaqlar:

- Dünyada tibb və sağlamlıq təhsilinin əhatə dairəsini izah edəcək.
- Öyrənmə nəzəriyyələrindən istifadə etməklə effektiv tədrisin yollarını sadalayacaq.
- Tibb və sağlamlıq elmləri təhsilverənlərinin səriştə çərçivəsini anlayacaq.
- Təhsil ehtiyaclarına uyğun öyrənmə hədəfləri yaza biləcək.
- Müəyyən edilmiş öyrənmə hədəfləri üçün uyğun olan tədris və qiymətləndirmə metodunu seçə biləcək.
- Böyük və kiçik qruplarda tədris üsulları və texnikalarından səmərəli istifadə edə biləcək.
- Böyük/kiçik qruplarda tədrisi, klinik mühitdə tədrisi və bacarıq təlimlərini planlaşdıracaq və həyata keçirəcək.

### *2.1.3. Təlimin metod və texnikaları*

Təlimdə metod və texnikaların müxtəlifliyinə diqqət etmək və onlardan iş prosesində necə istifadə olunacağını təsvir etməkdir.

Təlimdə istifadə olunan metodlar/texnikalar:

- **İsinmə:** İştirakçılar və təlimçilər günün mövzusuna uyğun olaraq günə isinmə hərəkəti ilə başlayır, beləliklə, komandada işləmə bacarıqları və öyrənmə motivasiyası təmin edilir.
- **Böyük qruplarda dərs:** Hər sessiyada mövzuya aid təməl anlayışlar paylaşılır.
- **Bacarıq təlimi:** Bacarıq demonstrasiyası öyrənmə rəhbər-

likləri ilə işləmə və məşqçiliyin nümayişi prossesi həyata keçirilir.

- **Rol oyunu:** Kiçik qrupda tədris zamanı texnikanın istifadəsi izah edilir.
- **Kiçik qrup tətbiqləri** (vızıltı, pazl situasiya təhlili, problemə əsaslanan öyrənmə, qartopası, akvarium və s. kimi): Aktiv öyrənmə prosesləri üçün sessiyalarda istifadə olunur.
- **Beyin fırtınası:** Kiçik qruplarda  tədris metodlarının həyata keçirilməsində tətbiq edilir
- **Əksetdirmə (Refleksiya)**: İştirakçılar tədris fəaliyyətləri, gün sonu rəy bildirmə və mikro-tədris prosesində iştirak edirlər.
- **Qrup işi:** Tədris proqramının tərtib edilməsində müştərək işin əhəmiyyətinin başa düşülməsi və proqramın tərtibetmə və təkmilləşdirilmə mərhələlərinin aydınlaşdırılması üçün planlaşdırılmışdır. İştirakçılar üç nəfərlik qruplarda tədris planı yazmağı (hədəf, məzmun, metod, dərs müddəti, qiymətləndirmə) öyrənirlər.
- **Mikro-tədris:** İştirakçıların hazırladıqları təlim prosesini tətbiq etmələri mikro-tədris vasitəsilə təmin olunur. İştirakçıların hər biri hazırladıqları dərs planlarına uyğun olaraq müvafiq təlim mühitini hazırlayaraq dərs keçir, bu dərslər videoya çəkilir və ertəsi gün qeydlərə baxaraq qrupun iştirakı ilə təhlil iclası keçirilir.

### *2.1.4. Təlim ləvazimatları və materialları*

Proqram boyu aşağıdakı mənbələr və materiallardan istifadə olunur:

**Vəsaitlər, avadanlıq-ləvazimatlar**

- Flipçart
- Kağız (A4)
- Qeyd vərəqləri
- Xüsusi rəngli markerlər
- Plaster (divar boyasına zərər verməyən növ)
- Ad üçün lövhələr (iştirakçılar, təlimçilər, müşahidəçilər üçün)
- Proyektor
- Pərdə

- Uzatma kabeli
- Göstərici (pointer)
- Mikrofon
- Printer
- Kompüter
- Səs gücləndirici
- Kamera
- Mikrotədris üçün tələb olunan maketlər

**Təlim ləvazimatları**

- Təlim videoları
- Bilik və bacarıqların qiymətləndirilməsi vasitələri (təlim rəhbərlikləri, təlimdən əvvəl və sonra qiymətləndirmə testləri, proqram dəyərləndirilməsi anketləri)
- İştirak sənədi və ya sertifikat

### *2.1.5. Proqram necə istifadə ediləcəkdir*

Təlim proqramı hazırkı işində tibb və sağlamlıq elmləri təhsili sahəsində təhsilverənlərin pedaqoji səriştəsini və müəssisənin tədris keyfiyyətini artırmaq istəyən şəxslərə müasir tibb təhsili ilə əlaqəli məlumat vermək, bacarıq öyrətmək və düzgün davranış təmin etmək məqsədi daşıyır. Proqram tibb  və sağlamlıq elmləri təhsili müəssisələri ilə yanaşı digər ali təhsil müəssisələrində tədrisin inkişafı çərçivəsində istifadə edilə bilər.

Təlimat PPİT proqramını həyata keçirən təlimçilər üçün hazırlanmışdır. Təlimatın birinci hissəsində təlim proqramının strukturu, təlimin məqsədi, təlimçilər, mühit, iştirakçılar, öyrənmə və qiymətləndirmə metodları haqqında məlumat verilmişdir. İkinci hissədə isə hər bir mövzu üzrə təqdimatların necə keçirilməsi ilə bağlı təlim prosesinin izahları verilmişdir.

### *2.1.6. Təlimçilər və mühit*

Kursu həyata keçirmək üçün minimum 10, maksimum 20 iştirakçı üçün 5-6 təlimçi tələb olunur. Proqramı həyata keçirən təlimçilərin sertifikatı almış (Şəkil 3), köməkçi təlimçi kimi ToT-də iştirak etmiş və aşağıdakı xüsusiyyətlərə malik olmaları gözlənilir:

- Təlim prosesində aktiv və davamlı iştirak etməsi;
- Mikrotədris təcrübələrində irəliləyiş göstərməsi;
- Təhsil üzrə lider motivasiyası və xüsusiyyətlərinə malik olması;
- PPİT təlimçisi olmaq üçün könüllü olması.




*Şəkil 3. Sağlamlıq təhsilverənləri üçün kompetensiyalar (ÜST, 2021)*

### *2.1.7. Təlimçiyə Dəstək Mexanizmi*

Təlimin uğurlu keçməsi üçün təlimçiyə aşağıdakı dəstək strukturunun təmin edilməsi tövsiyə olunur:

- Təlimdən əvvəl təlimçi yönümlü hazırlıq sessiyası.
- Təlimi ilk dəfə aparanlar üçün “kölgə təlimçi”* sistemi.
- Təlimçilər üçün istinad resursları və təlimat kitabçası.
- Təlimdən sonra təlimçi refleksiyası və qarşılıqlı rəy sessiyaları.

* **“Kölgə təlimçi” sistemi** (ingiliscə: *shadow trainer* ya da *trainer mentorship*) – təlimə ilk dəfə qoşulan və ya təcrübəsi az olan bir təlimçinin, daha təcrübəli bir təlimçi ilə birlikdə təlimi müşahidə edərək və ya iştirak edərək öyrəndiyi strukturlaşdırılmış öyrənmə modelidir. Bu sistemin məqsədi yeni təlimçilərə praktik təcrübə qazandırmaq, təlimin keçirilməsi prosesini mühitdə öyrətmək, təlimin necə planlandığını, aparıldığını və idarə edildiyini birbaşa müşahidə etməklə öyrətmək, təlimçi olaraq tam məsuliyyəti almadan əvvəl təhlükəsiz öyrənmə mühiti təmin etməkdir. Hər yeni təlimçiyə təcrübəli bir təlimçi mentor olaraq təyin olunur. Yeni təlimçi 1 və ya 2 sessiyada təcrübəli təlimçinin fəaliyyətini müşahidə edir.  Sessiyadan sonra ikitərəfli rəy və sual-cavab həyata keçirilir. Kölgə təlimçi təlimin kiçik hissəsini idarə edərək təcrübə qazanır. Mentor təlimçinin hazırlığını qiymətləndirir və ehtiyac varsa, əlavə müşayiət tövsiyə edir.



## *2.2. Təlim mühiti*

Təlim mühiti yetkin şəxsin öyrənmə xüsusiyyətinə və konstruktivist öyrənmə nəzəriyyəsinə uyğun olaraq aşağıdakı xüsusiyyətləri özündə birləşdirməlidir:

- Bərabər yerləşmə, müzakirə və qarşılıqlı ünsiyyəti təmin edən U strukturu (Şəkil 4)
- İsinmə və fəaliyyətlər üçün geniş otaqlar.
- Öyrənənlərin əsas ehtiyaclarını ödəyəcək mühit.
- Mikrotədris üçün uyğun dərs otaqları/ laboratoriyalar, maket və materiallar
- Proyektor, kompüter, video çəkiliş üçün kamera, internet infrastrukturu

### *2.2.1. İştirakçılar*

Proqrama tibb və sağlamlıq sahəsində

- Təhsilverənlər, müəllim və işini daha peşəkar şəkildə görmək istəyənlər,
- Uzun illər tibb və sağlamlıq elmləri sahəsində təhsilvermәsinə baxmayaraq yeniliklər və dəyişiklikləri öyrənmək istəyənlər,
- İşlədikləri müəssisələrdə daxili təlim vəzifəsini öz üzərinə götürəcək şəxslər,
- Tədris etmə bacarıqlarını artırmaq və sertifikat almaq istəyənlər,
- Müəssisə daxilində məlumat ötürən rəhbər vəzifələrdə olan şəxslər

### *2.2.2. Rəqəmsal Resursların İnteqrasiyası*

Müasir təlim texnologiyalarının tətbiqi iştirakçının aktivliyini və öyrənməyə marağını artırır. Təlim zamanı istifadə oluna biləcək bəzi rəqəmsal vasitələr:

- **Mentimeter** – interaktiv sual-cavab və sorğular üçün.
- **Padlet** – qrup işlərinin idarə olunması.
- **Kahoot/ Menti/ Jeopardi/ Quizizz** – oyunlaşdırılmış testlər.
- **Google Forms** – qiymətləndirmə və rəy toplamaq üçün.
- **Google Classroom və ya Moodle** – təlim materiallarının bölüşülməsi üçün.

### *2.2.3. Risklərin və Çətinliklərin İdarəedilməsi*

Təlimin həyata keçirilməsi zamanı aşağıdakı çətinliklərin qarşısını almaq üçün əvvəlcədən tədbirlər görülməlidir:

- **Texniki problemlər:** Təlim zamanı internet və cihaz problemləri üçün alternativ platformalar və texniki dəstək vasitələri və qrupu nəzərdə tutulmalıdır.
- **İştirakçıların passivliyi:** Aktiv metodlar və fasilitatorun yönləndirməsi ilə iştirakçılar motivasiya edilməlidir.
- **Vaxtın idarə olunması:** Hər bir bölmə üçün ayrılmış vaxt öncədən planlaşdırılmalı və real icra ilə uyğunlaşdırılmalıdır.

### *2.2.4. Qiymətləndirmə-dəyərləndirmə sistemi*

Proqram müddətində formativ qiymətləndirmədən istifadə edilməklə mütəmadi olaraq rəy verilir və qərarların qəbul edilməsinin qiymətləndirilməsi üçün effektiv iştirak və mikro-tədris tətbiqi şərtlərini yerinə yetirən iştirakçılar sertifikat almaq hüququ qazanırlar.

- **Davamlı iştirak:** Davamiyyət cədvəli ilə təmin edilir
- **Aktiv iştirak:** İştirakçıların proqramda nə dərəcədə aktiv iştirak etməsi təlimçinin müşahidələri və gündəlik qeydləri ilə təyin edilir.
- **Mikrotədris tətbiqləri:** Tədrisin tətbiqi video çəkilişlər aparılaraq, tətbiqi edən iştirakçının, qrupdakı digər iştrakçıların və təlimçilərin rəyləri kurs təhlili iclasında müzakirə edilir.

### *2.2.5. Təlim proqramının qiymətləndirilməsi*

Təlim proqramının qiymətləndirilməsi üçün gün sonu rəy bildirmə və kurs sonunda məmnunluq sorğusundan istifadə edilir.

**Gün sonunda qiymətləndirmə**

Hər günün sonunda iştirakçılardan metafor istifadə edilərək günü dəyərləndirmələri üçün verilmiş sualı cavablandırmaları istənilir. Məsələn, bu günü nəyəsə bənzətsəydiniz bu nə olardı və nə üçün? (hava, fəsil, geyim, məşhur şəxs və s.)

**Kurs sonunda qiymətləndirmə**

Beş sualdan ibarət anket təşkil olunmuşdur. Suallar proqramın müsbət tərəflərini, çatışmazlıqları və təkmilləşdirilməli məqamları, faydalılığı və təlim prosesindəki təcrübələrini əhatə edir. Bu anket sertifikat təqdimatından əvvəl, mikro-tədris təhlili sessiyasından sonra tətbiq olunur.

## *2.3. Kurs sonunda qiymətləndirmə*

Məlumatların qiymətləndirilməsi üçün "Kursdan əvvəl qiymətləndirmə" və "Kursun sonunda məmnunluq" SPSS verilənlər bazasından istifadə edilməklə, say və faiz şəklində hesablanır.

### *2.3.1. Təlimin Monitorinq və Qiymətləndirmə Sistemi*

Təlimin effektivliyini ölçmək üçün "Kirkpatrick Dəyərləndirmə Modeli"nin 4 səviyyəsinə əsaslanan qiymətləndirmə yanaşması tətbiq edilməlidir:

- **Səviyyə 1: Reaksiya** – İştirakçıların təlimlə bağlı ilk təəssüratları və məmnuniyyət səviyyəsi anonim sorğularla toplanmalıdır.
- **Səviyyə 2: Öyrənmə** – Təlimdə əldə edilən bilik və bacarıqlar formativ və summativ testlər vasitəsilə qiymətləndirilməlidir.
- **Səviyyə 3: Davranış** – Təlimdən sonra real mühitdə iştirakçının davranış dəyişikliyi, müşahidə və rəhbərlik rəyləri ilə izlənilməlidir.
- **Səviyyə 4: Nəticə** – Təlimin təşkilat və tədris mühitinə olan real təsiri qiymətləndirilməlidir.

### *2.3.2. Əlaqə və Rəy Sistemi*

İştirakçıların təlim zamanı və sonra rəy bildirməsi üçün aşağıdakı sistem qurulmalıdır:

- Təlim sonunda anonim elektron sorğu (Google Forms, Microsoft Forms).
- Açıq suallar vasitəsilə təkliflərin toplanması.
- Təlim hesabatında iştirakçı rəylərinin ümumiləşdirilməsi və növbəti versiyalar üçün planın hazırlanması.

### *2.3.3. Etik Prinsiplər və Məlumatların Məxfiliyi*

Təlim zamanı və ya sonunda toplanan bütün iştirakçı məlumatları (qiymətləndirmə nəticələri, rəy formaları və şəxsi fikirlər) yalnız anonim şəkildə istifadə edilməlidir. Bu məlumatların hər hansı formada üçüncü tərəflərlə paylaşılmaması, yalnız təlimin təkmilləşdirilməsi məqsədilə istifadə olunması təmin edilməlidir. Təlimçilər və təşkilatçılar etik davranış kodeksinə riayət etməli, iştirakçının şəxsi məxfiliyi hər zaman qorunmalıdır.

**XÜLASƏ:** Bu fəsildə tibb və sağlamlıq elmləri təhsilində pedaqoji peşəkarlığın inkişaf etdirilməsi zərurəti müasir təhsil çağırışları fonunda əsaslandırılır. Müəllimlərin yalnız fənn bilikləri ilə deyil, pedaqoji, kommunikativ və qiymətləndirmə bacarıqları ilə də təchiz olunmasının vacibliyi vurğulanır. Beynəlxalq çərçivələr – WHO (2021), UNESCO İKT modeli, CanMEDS və Kern modelinə istinad edilməklə, təlimin strateji əhəmiyyəti və transformativ təsiri izah edilir. Təlimin yalnız texniki bacarıq ötürmək deyil, həm də müəllimin peşəkar kimliyini yenidən formalaşdırmaq funksiyası daşıdığı ön plana çəkilir.

# II FƏSİL. PEDAQOJİ PEŞƏKARLIĞIN İNKİŞAFI TƏLİMİ STRUKTURLAŞDIRILMIŞ PROQRAMI

## BÖLÜM 1. GİRİŞ

Bu fəsildə Pedaqoji Peşəkarlığın İnkişafı təlimi (PPİT) çərçivəsində təhsilverənlərin akademik və pedaqoji bacarıqlarını inkişaf etdirmək məqsədilə hazırlanmış sistemli sessiyalar təqdim olunur. Hər bir sessiya təlimin məqsədlərinə uyğun planlanmış, konkret öyrənmə nəticələrinə yönəlmiş və beynəlxalq standartlara əsaslanan metodlarla dəstəklənmişdir. Sessiyalar tibb və sağlamlıq elmləri təhsili kontekstində effektiv təlimçinin rolu, tədris dizaynı, qiymətləndirmə strategiyaları və reflektiv bacarıqların formalaşdırılması kimi əsas istiqamətləri əhatə edir.

- **Effektiv təlimçi rolu** – Sessiyalar müəllimlərin sadəcə bilik ötürən deyil, öyrənməni təşviq edən, yönləndirən və dəstəkləyən fasilitator kimi fəaliyyət göstərməsinə şərait yaradır. Bu yanaşma müasir tibb təhsilində tələbə mərkəzli və interaktiv tədris modellərinin tətbiqinə imkan verir.
- **Tədris dizaynı** – Təlim modullarında tədris prosesinin planlaşdırılması, kurikulumun strukturlaşdırılması və təlimin məqsədyönlü dizaynı diqqət mərkəzində saxlanılır. Sessiyalarda iştirakçılar öyrənmə hədəflərinin yazılması, məzmunun ardıcıllığının təmin olunması və tədris metodlarının uyğunlaşdırılması kimi əsas bacarıqları mənimsəyirlər.
- **Qiymətləndirmə strategiyaları** – Proqram iştirakçıları müxtəlif qiymətləndirmə metodlarının (formativ, summativ, obyektiv və performansa əsaslanan) üstünlüklərini və tətbiq sahələrini öyrənir. Bu, tələbələrin öyrənmə səviyyəsinin daha obyektiv və etibarlı şəkildə müəyyən olunmasına xidmət edir.
- **Reflektiv bacarıqların formalaşdırılması** – Sessiyalarda müəllimlərin öz fəaliyyətlərini təhlil etməsi, güclü və zəif tərəflərini müəyyən edərək davamlı təkmilləşmə yolu seçməsi üçün refleksiya əsas bacarıq kimi inkişaf etdirilir. Bu, həm də akademik özünüdəyərləndirmə mədəniyyətinin formalaşmasına zəmin yaradır.

Bu istiqamətlər proqramın məqsədinə uyğun olaraq təhsilverənlərin pedaqoji səriştələrinin gücləndirilməsinə və onların peşəkar kimliklərinin transformasiyasına yönəlmişdir. Proqramın məqsəd və istiqamətlərinə uyğun olaraq sessiyalar təşkil olunur.

### 1.1. Sessiyaların ümumi məqsədi

Pedaqoji Peşəkarlığın İnkişafı Təlimi çərçivəsində keçirilən sessiyalar təhsilverənlərin pedaqoji səriştələrinin məqsədyönlü şəkildə inkişaf etdirilməsinə yönəlmişdir. Bu sessiyalar vasitəsilə müəllim heyətinin yalnız bilik daşıyıcısı deyil, həm də öyrənməni təşviq edən, qiymətləndirən, reflektiv və innovativ lider kimi formalaşması hədəflənir. Sessiyaların ümumi məqsədi, tibb və sağlamlıq elmləri təhsili kontekstində səriştə əsaslı, tələbəyönümlü və sübuta əsaslanan təlimin təşkili üçün zəruri olan nəzəri və praktiki bacarıqları təhsilverənlərə qazandırmaqdan ibarətdir.

### 1.2. Təlim yanaşması və metodları

Təlim proqramı konstruktivist təlim nəzəriyyəsinə əsaslanır və yetkin insanların öyrənmə xüsusiyyətlərini (andraqoji prinsipləri) nəzərə alır. Sessiyalar interaktiv, iştirakçını cəlb edən və reflektiv metodlarla aparılır. Təlimçilər mikrotədris, kiçik qrup müzakirələri, simulyasiya, problemə əsaslanan öyrənmə (PBL), rol oyunları, beyin fırtınası və praktik tapşırıqlar vasitəsilə iştirakçılarda fəal öyrənməni təşviq edirlər. Bu metodlar təhsilverənin öyrənməyə cəlb olunmasını, öz təcrübəsinə əsaslanaraq öyrənməsini və dərhal tətbiq edə biləcəyi bacarıqları formalaşdırmasını təmin edir.

### 1.3. Sessiyaların planlaşdırılması prinsipləri

Sessiyalar strukturlaşdırılmış şəkildə ardıcıl, məqsədli və nəticə əsaslı planlaşdırılmışdır. Planlaşdırma prosesi beynəlxalq standartlara əsaslanır. Hər sessiyanın əvvəlində öyrənmə məqsədləri aydın şəkildə müəyyənləşdirilir, uyğun təlim strategiyaları və resurslar seçilir və sessiyanın sonunda öyrənmə nəticələrinin ölçülməsi üçün uyğun qiymətləndirmə üsulları tətbiq olunur. Sessiyalar həmçinin inklüzivlik, gender həssaslığı və davamlı inkişaf prinsiplərini nəzərə alır.

# BÖLÜM 2. TƏLİMİN MƏZMUN STRUKTURU

Bu bölmədə təqdim olunan sessiyalar PPİT-nin məzmun əsaslarını təşkil edir və səriştə əsaslı pedaqoji inkişafın sistemli planlanması baxımından tematik bloklar şəklində strukturlaşdırılmışdır. Sessiyalar tibb və sağlamlıq təhsili kontekstində təhsilverənin müasir rollarına uyğun bacarıqların inkişaf etdirilməsinə, tədris proqramının dizaynı, təlim metodları, qiymətləndirmə strategiyaları və reflektiv təcrübələrin formalaşdırılmasına yönəlib. Proqram modulları ardıcıl və mərhələli şəkildə planlaşdırılmış, beynəlxalq təcrübəyə və yerli ehtiyaclara əsaslanaraq inteqrativ yanaşma ilə təşkil olunmuşdur.

Bu struktur, təhsilverənlərin təlim prosesini yalnız icra edən deyil, eyni zamanda təhlil edən, inkişaf etdirən və idarə edən mütəxəssisə çevrilməsini dəstəkləyir.

## *2.1. Təlimin əsas mövzuları*

"Pedaqoji peşəkarlığın inkişafı" təliminin qeyd olunan modullara uyğun aşağıdakı **mövzuları** təlimin ana xəttini təşkil edir:

1. Dünyada və Azərbaycanda tibb təhsili
2. Öyrənmənin əsasları və öyrənmə nəzəriyyələrinin tədrisə tətbiqi. Tədrisdə təhsilverənin rolu və təhsildə liderlik
3. Tədris proqramının tərtibi və tətbiqi
4. Tibb təhslində məqsəd və hədəflərin təyin edilməsi. Öyrənmə hədəflərinin yazılması
5. Kiçik qruplarda tədris üsulları və tətbiqi
6. Böyük qruplarda tədrisin təşkili və interaktiv üsulların tətbiqi
7. Bacarıq əsaslı tədrisin təşkili
8. Klinik mühitdə tədrisin təşkil edilməsi
9. Qiymətləndirmə və dəyərləndirmədə ümumi anlayışlar, metod və prinsiplər
10. Yazılı imtahanların növləri və tərtib edilməsi
11. Tədris planının hazırlanması
12. Çoxseçimli sualların hazırlanması, tətbiqi və analizi
13. Simulyasiya əsaslı tədrisin təşkil olunması və dəyərləndirilməsi (OSKİ/OSPİ)
14. İşə əsaslanan tədrisin təşkil olunması. Tibb təhsilində alternativ dəyərləndirmə üsullarının tətbiqi (MiniCEX, DOPS, 360 dərəcə dəyərləndirmə, portfolio)
15. Mikrotədris (Microteaching) tətbiqlərinin təhlili

## 2.2. Sessiyalar

### Sessiya 1. Təlimin Açılışı və Tanışlıq

***Açılış və proqramın təqdimatı***

**Müddət:** 10 iştirakçı üçün təxminən bir saat

**Sessiyanın qısa təqdimatı:** Bu sessiyada iştirakçılar və təlimçilər görüşəcək, proqramın məqsəd və vəzifələri izah ediləcəkdir. İştirakçıların gözləntiləri ilə proqramın məzmunu müqayisə edilərək limitlər müəyyənləşdiriləcəkdir. Qrup qaydalarının müəyyən edilməsi ilə qrup prosesləri başlanacaq.

**Sessiyanın materialları:**

- Kursdan əvvəl dəyərləndirmə anketi
- Proyektor, kağız lövhə (flipçart)
- Təlim proqramı

| Gün | Saat | Məzmun |
|---|---|---|
| I | 10 iştirakçı üçün: 60’ | Biz kimik?<br>Açılış<br>Proqramın təqdim edilməsi<br>Qaydaların qoyulması<br>Pretest |
| | 60’ | Dünyada və Azərbaycanda tibb təhsili |
| | 15’ | **Fasilə** |
| | 90’ | Öyrənmənin əsasları və öyrənmə nəzəriyyələrinin tədrisə tətbiqi. Tədrisdə təhsilverənin rolu və təhsildə liderlik |
| | 15’ | **Müzakirə, günün dəyərləndirilməsi** |
| II | 15’ | İsinmə (**Ad-xüsusiyyət)** |
| | 45’ | Tədris proqramının tərtibi və tətbiqi |
| | 15’ | **Fasilə** |
| | 90’ | Tibb təhslində məqsəd və hədəflərin təyin edilməsi. Öyrənmə hədəflərinin yazılması |
| | 15’ | **Fasilə** |
| | 80’ | Böyük qruplarda tədrisin təşkili və interaktiv üsulların tətbiqi |
| | 15’ | **Müzakirə, günün dəyərləndirilməsi** |

| Gün | Saat | Məzmun |
|---|---|---|
| III | 20’ | İsinmə (***Kahoot* proqramının nümayişi)** |
| | 60’ | Kiçik qruplarda tədris üsulları və tətbiqi |
| | 15’ | **Fasilə** |
| | 75’ | Bacarıq əsaslı tədrisin təşkili |
| | 15’ | **Fasilə** |
| | 45’ | Klinik mühitdə tədrisin təşkil edilməsi |
| | 15’ | **Müzakirə, günün dəyərləndirilməsi** |
| IV | 20’ | İsinmə (***Menti* proqramının nümayişi)** |
| | 50’ | Qiymətləndirmə və dəyərləndirmədə ümumi anlayışlar, metod və prinsiplər |
| | 15’ | Fasilə |
| | 45’ | Yazılı imtahanların növləri və tərtib edilməsi |
| | 15’ | **Fasilə** |
| | 45’ | Tədris planının hazırlanması |
| | 15’ | **Müzakirə, günün dəyərləndirilməsi** |
| V | 20’ | İsinmə (***Jeopardy* proqramının nümayişi)** |
| | 50’ | Çoxseçimli sualların hazırlanması, tətbiqi və analizi |
| | 15’ | **Fasilə** |
| | 45’ | Simulyasiya əsaslı tədrisin təşkil olunması və dəyərləndirilməsi (OSKİ/OSPİ) |
| | 15’ | **Fasilə** |
| | 45’ | İşə əsaslanan tədrisin təşkil olunması. Tibb təhsilində alternativ dəyərləndirmə üsullarının tətbiqi (MiniCEX, DOPS, 360 dərəcə dəyərləndirmə, portfolio) |
| | 15’ | **Müzakirə, günün dəyərləndirilməsi**<br>**Posttest**<br>**Kurs sonu dəyərləndirmə anketi** |
| VI | Hər iştirakçı üçün: 30’ | *Mikrotədris* (*Microteaching*) |
| VII | Hər iştirakçı üçün: 15’ | Dərs nümunələrinin təhlili |

***Mövzu 1. Dünyada və Azərbaycanda tibb təhsili***

**Müddət :** 60’

**Sessiyanın qısa təqdimatı:** Bu sessiyada iştirakçılar tibb və səhiyyə təhsilində tətbiq olunan müxtəlif proqram modelləri haqqında anlayış əldə edəcəklər.

**Sessiyanın hədəfləri:** Bu sessiyanın sonunda iştirakçılar,

1. Tibb və sağlamlıq təhsilindəki müxtəlif səviyyələri izah edə biləcək;
2. Dünyada istifadə olunan əsas proqram modellərini təsvir edəcək;
3. Müxtəlif proqram modellərinin xüsusiyyətlərini izah edə biləcək

**Sessiyanın məzmunu:**

1. Tibb və sağlamlıq tədrisinin səviyyələri
2. Tibb və sağlamlıq təhsilində tədris mühitləri
3. Tibb və sağlamlıq təhsilində proqram modelləri

**Sessiyanın materialları:**

- Təqdimat slaydları
- Tədris modellərinin sxem nümunələri

***Mövzu 2. Öyrənmənin əsasları və öyrənmə nəzəriyyələrinin tədrisə tətbiqi.***
***Tədrisdə təhsilverənin rolu və təhsildə liderlik***

**Müddət:** 90’

**Sessiyanın qısa təqdimatı:** Bu mövzu ilə iştirakçılar öz öyrənmə üslubları və öyrətmə yanaşmaları haqqında məlumat əldə edirlər. Sessiya iştirakçıların tədris fəaliyyətini təşkil edərkən öyrənmə və öyrətmə ilə bağlı təməl anlayış və nəzəriyyələri tədrisin təşkil edilməsində istifadə etmələrini təmin etmək məqsədi daşıyır.

**Sessiyanın hədəfləri:** Bu sessiyanın sonunda iştirakçılar

- ✓ Davranış nəzəriyyələrinə əsasən necə öyrəndiyimizi izah edəcək;
- ✓ Koqnitiv nəzəriyyələrinə əsasən necə öyrəndiyimizi izah edəcək;
- ✓ Konstruktivist nəzəriyyələrə əsasən necə öyrəndiyimizi izah edəcək;

- ✓ Öyrənmə və öyrətmə anlayışları arasındakı fərqləri söyləyəcək;
- ✓ Öyrənmə zamanı öyrənmə üslublarının əhəmiyyətini təsvir edə biləcək;
- ✓ Effektiv öyrənmənin təmin edildiyi tədris mühitində öyrənən və öyrədənin rolunu şərh edə biləcək.
- ✓ Tədrisi təşkil etmək üçün öyrənmə prinsiplərindən necə istifadə edilməli olduğunu izah edə biləcək.

**Sessiyanın məzmunu:**

- Öyrənmə, öyrətmə və tədris anlayışları
- Öyrənmə üslubları və tədrisdə əhəmiyyəti
- Öyrənmə nəzəriyyələri və tədris üçün nüanslar
- Tədris metodları
- Təhsilverən rolları

**Sessiya materialları**

- Təqdimat slaydları
- VARK və ya BARSH anketi və izahı

## Təlim proqramının tərtibi və tətbiqi

### *Sessiya 2. Tədris Proqramının Planlaşdırılması*

***Mövzu 3. Tədris proqramının tərtibi və tətbiqi***

**Müddət: 45'**

**Sessiyanın qısa təqdimatı:** Bu mövzu ilə iştirakçılar tədris proqramının komponentləri haqqında məlumat əldə edirlər; Onların əldə etdikləri məlumatlardan tədris fəaliyyətinin planlaşdırılması, tətbiq edilməsi və qiymətləndirilməsində istifadə edə bilmələri nəzərdə tutulur.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Tədris proqramının təkmilləşdirilməsi konsepsiyasını izah edə biləcək;
- ✓ Tədris proqramının təkmilləşdirilməsi prosesində hər bir addımın əhəmiyyətini və onların bir-biri ilə əlaqəsini söyləyəcək;
- ✓ Ehtiyacların müəyyən edilməsinin vacibliyini və yollarını söyləyəcək;
- ✓ Tədris strategiyası, hədəf və metod arasındakı əlaqəni izah

edəcək;
- ✓ Tədris metodlarını qruplaşdıracaq və bu metodların seçimində təsiredici amilləri sadalayacaq;
- ✓ Proqramın qiymətləndirilməsinin əhəmiyyətini izah edəcək.

**Sessiyanın məzmunu:**
- Proqram tərtib etmə mərhələləri
- Ehtiyacların təyin edilməsi
- Məqsəd və hədəflərin müəyyən edilməsi
- Tədris və tətbiq etmə metodlarının müəyyən edilməsi
- Proqramın qiymətləndirilməsi metodlarının müəyyən edilməsi

**Sessiya materialları**
- Təqdimat slaydları
- "Ad-xüsusiyyət" isinmə təlimatı

***Mövzu 4. Tibb təhslində məqsəd və hədəflərin təyin edilməsi. Öyrənmə hədəflərinin yazılması***

**Müddət: 90'**

**Sessiyanın qısa təqdimatı:** Bu mövzu ilə iştirakçılar tədris proqramının təkmilləşdirilməsində üçüncü addım olan məqsəd və hədəflərin müəyyənləşdirilməsi üzrə bilik və bacarıqlar əldə edəcəklərdir.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:
- ✓ Öyrənmə hədəflərinin tədris proqramı üçün əhəmiyyətini izah edəcək;
- ✓ Hədəf anlayışını müxtəlif səviyyələrdə izah edə biləcək;
- ✓ Düzgün yazılmamış öyrənmə hədəflərini təyin edə biləcək.
- ✓ Qaydalara uyğun şəkildə bilik, bacarıq və davranışa aid öyrənmə hədəfi yaza biləcək;
- ✓ Spesifikasiya cədvəlini və onun əhəmiyyətini izah edəcək.

**Sessiyanın məzmunu:**
- Öyrənmə hədəfi yazma
- Spesifikasiya cədvəli

**Sessiya materialları**
- Təqdimat slaydlar
- "Öyrənmə hədəfi yazma" tətbiq təlimatı

***Mövzu 5: Böyük qruplarda tədrisi təşkili və interaktiv üsulların tətbiqi***

**Müddət: 80'**

**Sessiyanın qısa təqdimatı:** Bu sessiyada iştirakçılar böyük qrup tədris metodları haqqında məlumat əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Böyük qrupda tədris metodunu şərh edəcək;
- ✓ Böyük qrupda tədris metodlarındakı fərqləri söyləyəcək;
- ✓ Slayd hazırlama texnikasını izah edə biləcək;
- ✓ Təqdimat zamanı diqqət edilməli məqamları sadalayacaq;
- ✓ Effektiv və interaktiv təqdimat texnikalarını izah edəcək.

**Sessiyanın məzmunu:**

- Panel, seminar, konfrans, simpozium
- Slayd hazırlama texnikaları
- Effektiv təqdimat etmək

**Sessiya materialları:**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə

TSET

## *Sessiya 3.* Tədris Metodları və Sinif İdarəetməsi

***Mövzu 6: Kiçik qruplarda tədris üsulları və tətbiqi***

**Müddət: 60'**

**Sessiyanın qısa təqdimatı:** Bu mövzu ilə iştirakçılar effektiv tədris prosesləri üçün hədəflərə müvafiq tədris metod və texnikalarını tətbiq edə biləcəklər. Sessiya sonunda iştirakçılar kiçik qrupun xüsusiyyətləri və kiçik qruplarda effektiv öyrənməyə istiqamətləndirilmiş anlayışlar əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Qrup anlayışı və xüsusiyyətlərini izah edə biləcək;
- ✓ Qrupların inkişaf mərhələlərini sadalayacaq;
- ✓ Qrup işindən əvvəl və sonra nə edilməli olduğunu söyləyəcək;
- ✓ Kiçik qruplarda effektiv tədris texnikalarının necə həyata keçirilməli olduğunu söyləyəcək;

- ✓ Vızıltı, qartopu, akvarium, beyin fırtınası üsullarını tətbiq edə biləcək.

**Sessiyanın məzmunu:**

- Qrup xüsusiyyətləri, mərhələləri
- Effektiv qrup işinin prinsipləri
- Kiçik qruplarda tədris texnikaları

**Sessiya materialları**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə
- Tədris texnikalarının tətbiqi təlimatları

***Mövzu 7: Bacarıq əsaslı tədrisin təşkili***

**Müddət: 75'**

**Sessiyanın qısa təqdimatı:** Bu sessiya ilə iştirakçılar bacarıq təliminin həyata keçirilməsində prinsip və metodlara yiyələnəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Bacarıq təliminin əhəmiyyətini sadalayacaq;
- ✓ Bacarıq təlimində istifadə olunan yanaşmaları izah edə biləcək;
- ✓ Bacarıq təlimində öyrənmə və qiymətləndirmə rəhbərliklərini hazırlayıb, tətbiq edəcək;
- ✓ Bacarıq təlimində nümayiş və məşqçilik edə biləcək.

**Sessiyanın məzmunu:**

- Bacarıq təliminin əhatə dairəsi, yanaşmaları
- Bacarıq təlimində rəhbərliklər (təlimat)
- Bacarıq təlimində nümayiş və məşqçilik

**Sessiya materialları**

- Steril əlcək geyinmə və çıxarma rəhbərliyi
- Təqdimat slaydları
- Ağ və kağız lövhə

***Mövzu 8: Klinik mühitdə tədrisin təşkil edilməsi***

**Müddət: 45'**

**Sessiyanın qısa təqdimatı:** Bu mövzu ilə iştirakçılar klinikada tədrisin təşkili üçün bilik və bacarıqlar əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Klinikada necə öyrəndiyimizi izah edə biləcək;
- ✓ Kliniki tədris mühitinin xüsusiyyətlərini izah edəcək;
- ✓ Effektiv kliniki öyrənmə və tədrisdə tərəflərin rolunu təsvir edəcək;
- ✓ Proqramın hazırlanması proseslərində klinikada necə dərs keçməklə bağlı nüanslardan istifadə edə biləcək.

**Sessiyanın məzmunu:**

- Klinikada öyrənmə yanaşmaları
- Klinikada öyrənmə mühitləri
- Klinikada təhsilverən, tələbə, rezident, xəstə rolları
- Klinikada effektiv öyrətmə texnikaları

**Sessiya materialları**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə
- Klinikada öyrənmə videoları

## *Sessiya 4. Qiymətləndirmə və dəyərləndirmədə*

***Mövzu 9: Qiymətləndirmə və dəyərləndirmədə ümumi anlayışlar, metod və prinsiplər***

**Müddət: 50’**

**Sessiyanın qısa girişi:** Bu mövzu ilə iştirakçılar qiymətləndirmə və qiymətləndirmənin təməl prinsipləri haqqında anlayış əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Qiymətləndirmə-dəyərləndirmə əsas prinsiplərini sadalayacaq;
- ✓ Məqbul və etibarlı imtahan üçün lazımi xüsusiyyətləri söyləyəcək;
- ✓ Qiymətləndirmə-dəyərləndirmə üsullarının seçimində səriştə və hədəfin əhəmiyyətini izah edə biləcək;
- ✓ İmtahanın keyfiyyət göstəricilərini sadalayacaq;
- ✓ İmtahanın keyfiyyətinə təsir göstərən amillərin əhəmiyyətini izah edəcək.

**Sessiyanın məzmunu:**

- Qiymətləndirmə-dəyərləndirmənin tərifi, məqsədi və növləri
- Qiymətləndirmə-dəyərləndirmə metodları
- İmtahanın keyfiyyət göstəriciləri

**Sessiya materialları:**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə
- Tədris texnikalarının tətbiqi rəhbərlikləri

***Mövzu 10: Yazılı imtahanların növləri və tərtib edilməsi***

**Müddət: 45'**

**Sessiyanın qısa təqdimatı:** Bu mövzu ilə iştirakçılar yazılı imtahanlar haqqında anlayış əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar

- ✓ Yazılı imtahanların əhatə dairəsini izah edə biləcək;
- ✓ Açıq uclu mətn tipli sualların xüsusiyyətlərini izah edəcək;
- ✓ Uyğun yazılmış qısa cavablı sualların xüsusiyyətlərini izah edəcək;
- ✓ Qaydalara uyğun şəkildə yazılmış klassik mətn tipli sualların xüsusiyyətlərini izah edə biləcək;
- ✓ Yazılı imtahanların qiymətləndirilməsində istifadə olunan qiymətləndirmə vasitələrindən istifadə qaydalarını söyləyəcək;
- ✓ Boşluq doldurma tipli suallarının xüsusiyyətlərini izah edəcək;
- ✓ Uyğun şəkildə yazılmış doğru-yanlış tipli sualların xüsusiyyətlərini izah edə biləcək.

**Sessiyanın məzmunu:**

- Yazılı imtahanların təsnifatı
- Açıq uclu mətn tipli suallar
- Qısa cavablı suallar
- Klassik yazılı mətn tipli suallar
- Boşluq doldurma sualları
- Doğru-yanlış tipli suallar

**Sessiya materialları:**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə

***Mövzu 11: Tədris planının hazırlanması***
**Müddət: 45'**
**Sessiyanın qısa təqdimatı:** Bu sessiyada iştirakçılar müəyyən etdikləri hədəfləri tədris planına çevirmək üçün qruplarda işləyəcəklər.
**Sessiya materialları:**

- Tədris planı tərtib etmə materialı

**Sessiyanın hədəfləri:**
Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Tədris planının məqsəd və funksiyalarını izah edə biləcək;
- ✓ Təlim hədəflərini məzmun və təlim metodları ilə uyğunlaşdıracaq;
- ✓ Tədris planının əsas struktur elementlərini sadalayacaq;
- ✓ Fəaliyyətə əsaslanan təlim planı nümunəsi hazırlaya biləcək;
- ✓ Tədris planında öyrənənin iştirakını təmin edən strategiyaları müəyyən edəcək;
- ✓ Qiymətləndirmənin təlim planında yerini əsaslandıra biləcək.

**Sessiyanın məzmunu:**

- Tədris planının tərifi və məqsədi
- Planlaşdırma mərhələlərinin ardıcıllığı (Kern modeli kontekstində)
- Təlim məqsədlərinin yazılması və uyğunlaşdırılması
- Təlim strategiyası və metod seçimi
- Qiymətləndirmə vasitələrinin inteqrasiyası
- Resurslar və zaman bölgüsünün planlanmas
- Tədris planı nümunələrinin təhlili və tətbiqi

**Sessiya materialları:**

- Təqdimat slaydları
- Tədris planı şablonları
- Müzakirə və refleksiya sualları
- Flipchart və markerlər

## *Sessiya 5: Qiymətləndirmə metodları*

**Mövzu 12: Çox seçimli sualların hazırlanması, tətbiqi və analizi**
**Müddət: 50'**
**Sessiyanın qısa təqdimatı:** Bu sessiya ilə iştirakçılar çox seçimli

suallar haqqında anlayış, hazırlanma qaydaları və təhlili haqqında məlumat əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Çox seçimli sualın strukturunu izah edəcək;
- ✓ Çox seçimli sualları hazırlanarkən diqqət edilməli nüansları sadalayacaq;
- ✓ İmtahanın növünə görə imtahan vaxtlarını şərh edə biləcək;
- ✓ Yüksək səviyyəli hədəflərə doğru istiqamətlənmiş bilik, bacarıq və davranış sahələrinə aid sualları hazırlaya biləcək.
- ✓ Maddə çətinliyi anlayışını təsvir edəcək;
- ✓ Maddə təhlili prosesini izah edəcək;
- ✓ Sualı çətinlik və ayırdetmə indeksi vasitəsilə təhlil edə biləcək.

**Sessiyanın məzmunu:**

- Çox seçimli sualların strukturu
- Çox seçimli sualların hazırlanması qaydaları
- İmtahan müddətləri
- Maddə təhlili prosesi
- Çətinlik və ayırdetmə indeksi

**Sessiya materialları:**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə

***Mövzu 13: Simulyasiya əsaslı tədrisin təşkil olunması və dəyərləndirilməsi (OSKİ/OSPİ)***

**Müddət: 45'**

**Sessiyanın qısa təqdimatı:** Bu sessiya ilə iştirakçılar bacarıqları ölçmək üçün istifadə olunan OSKİ metodu haqqında anlayış əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ OSKİ-in nəyi/nələri ölçdüyünü izah edə biləcək;
- ✓ OSKİ-in stansiya strukturunu təsvir edəcək;
- ✓ OSKİ-in tətbiq xüsusiyyətlərini izah edəcək.

**Sessiyanın məzmunu:**

- OSKİ -in stansiya strukturu
- OSKi -in tətbiq xüsusiyyətləri

**Sessiya materialları:**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə

***Mövzu 14: İşə əsaslanan tədrisin təşkil olunması. Tibb təhsilində alternativ dəyərləndirmə üsullarının tətbiqi (MiniCEX, DOPS, 360 dərəcə dəyərləndirmə, portfolio)***

**Müddət: 45'**

**Sessiyanın qısa təqdimatı:** Bu sessiyada iştirakçılar alternativ ölçmə-qiymətləndirmə metodları haqqında anlayış əldə edəcəklər.

**Sessiyanın hədəfləri:**

Bu sessiyanın sonunda iştirakçılar:

- ✓ Test və alternativ qiymətləndirmə mədəniyyəti arasındakı fərqi izah edə biləcək.
- ✓ Mini klinik imtahanın əhatə dairəsini və məqsədini izah edəcək.
- ✓ Mini-klinik imtahanının tətbiq müddətini izah edəcək.
- ✓ Digər alternativ qiymətləndirmə üsullarının (360°, DOPS) tətbiq xüsusiyyətlərini izah edəcək;
- ✓ Portfolionun əhatə dairəsini və məqsədini şərh edəcək.
- ✓ Portfolionun müəllim, tələbə və tədris proqramı üçün əhəmiyyətini söyləyəcək;
- ✓ Portfolionun məzmununu müzakirə edə biləcək.

**Sessiyanın məzmunu:**

- Mini Klinik, DOPS, 360° dəyərləndirmə imtahanları
- Portfolio

**Sessiya materialları:**

- Təqdimat slaydları
- Ağ və kağız lövhə
- Mini Klinik İmtahan Forması
- Portfolio nümunələri

**Sessiya 6. Dərs nümunələrinin çəkilişi və təhlili**

***Mövzu 15: Mikrotədris***

**Müddət:** Hər bir iştirakçı üçün 30'

**Sessiyanın qısa təqdimatı:** Bu sessiyada iştirakçılar fərdi şəkildə hazırladıqları 15 dəqiqəlik tədris fəaliyyətini təqdim edəcəklər.

**Sessiya materialları**

- İştirakçı materialları
- Klinik tədris mühitini simulyasiya edən materiallar  xəstə yatağı, poliklinika mühiti
- Bacarıq təlimi laboratoriyasını simulyasiya edən mühit və materiallar ( maketlər və s.)
- Sinif dərsi üçün proyektor, kompüter

***Mövzu 16: Mikrotədrisin təhlili və yekun***

**Sessiyanın qısa təqdimatı:** Bu sessiyada iştirakçılar tərəfindən fərdi olaraq hazırlanmış 15 dəqiqəlik tədris fəaliyyətlərinə bütün iştrakçılarla birlikdə baxılaraq təhlil edilir.

**Sessiya materialları**

- Mikro tədris qeydləri
- Rəy kartları
- Qiymətləndirmə formu
- Sertifikatlar

## BÖLÜM 3. TƏLİMİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ ÜZRƏ BƏLƏDÇİ: YENİ TƏLİMÇİLƏR ÜÇÜN TÖVSİYƏLƏR

### *3.1. Təlimə hazırlıq mərhələsi*

Yeni təlimçilər üçün ilk mərhələ təlimin məqsədini, hədəf auditoriyanı və təlim proqramını əhatəli şəkildə anlamaqdır. Bunun üçün:

- Təlimin gündəlik proqramı, sessiyaların məqsəd və nəticələri, istifadə olunacaq materiallar və təlim metodları əvvəlcədən araşdırılmalıdır.
- Təlim məkanında texniki avadanlıqların işləkliyi (proyektor, səs sistemləri, internet, flipçart və s.) yoxlanmalı, təlim mühiti (oturma düzümü, hava, işıqlandırma) uyğunlaşdırılmalıdır.

**Tövsiyə:** Təlim günündən əvvəl **“quru məşq”** keçirmək (təqdimatın öz-özünə sınaq məşqi) təlimçinin özünəinamını artırır.

## *3.2. İştirakçılarla ilk əlaqə: Təəssürat yaratmaq*

Təlimin ilk dəqiqələri təlimçi ilə iştirakçı arasında münasibətin qurulmasında həlledicidir. Açılış zamanı:

- Özünü qısa və səmimi təqdim etmək, təlimin məqsədini izah etmək,
- İştirakçıların gözləntilərini soruşmaq və yazmaq (post-it, flip-çart və ya Google Jamboard),
- Qaydaları birlikdə müəyyənləşdirmək (məsələn: telefon istifadəsi, fasilə vaxtları, hörmətli dinləmə) təlimin uğuruna zəmin yaradar.

**Tövsiyə:** İsinmə fəaliyyəti üçün sadə və maraqlı bir "buzqıran" (icebreaker) seçin:
məsələn, "Ad və 3 sözlə özünü tanıt".

## *3.3. Sessiyanın effektiv aparılması*

Təlimin gedişində təlimçi aşağıdakılara diqqət etməlidir:

- **Aktiv öyrənmə metodlarından** istifadə: rol oyunu, qrup işi, qartopası, qısa quiz-lər, real senarilər.
- Slaydlar sadə, **vizual dəstəklə zəngin**, məlumatın əsas məğzini verəcək şəkildə tərtib olunmalıdır.
- Təlimçinin rolu **məlumat ötürməkdən çox** öyrənməni yönləndirmək, **motivasiya yaratmaq** və **rəy vermək** olmalıdır.

**Tövsiyə:** Hər 20–25 dəqiqədən bir interaktivlik yaradın — sual-cavab, qrup müzakirəsi və ya reflektiv sual.

## *3.4. Rəyvermə və öyrənmənin qiymətləndirilməsi*

- Sessiya sonrası iştirakçılara **strukturlaşdırılmış rəy** verilməlidir. Məsələn, mikrotədris zamanı **"SANDWICH"** modeli (müsbət rəy – inkişaf üçün tövsiyə – yenidən motivasiya) istifadə oluna bilər.
- Öyrənmənin səviyyəsini ölçmək üçün əvvəl və sonra **bilik yoxlaması** (pretest-posttest), **özünüdəyərləndirmə formaları**, **qiymətləndirmə rubrikləri** tətbiq edilə bilər.

**Tövsiyə:** Rəyi yalnız tənqidi yox, **diaqnostik məqsədlə** verin — bu iştirakçının özünü inkişaf etdirməsinə yol açır.

### *3.5. Çətinliklərin öhdəsindən gəlmək*

Yeni təlimçilər aşağıdakı hallar üçün hazırlıqlı olmalıdır:

- Passiv iştirakçılar: Qrup işi vasitəsilə onları aktivləşdirmək.
- Texniki problemlər: Alternativ material (USB, çap olunmuş slayd) hazır saxlamaq.
- Vaxt çatışmazlığı: Hər hissəyə dəqiq zaman planı ilə yanaşmaq.

**Tövsiyə:** Fasilələr zamanı iştirakçılarla qeyri-rəsmi ünsiyyət qurmaq atmosferi yumşaldar və öyrənməyə müsbət təsir edər.

**XÜLASƏ:** Bu fəsildə təlim proqramının məzmun strukturu ardıcıl sessiyalar və tematik bölmələr şəklində təqdim olunaraq, tibb və sağlamlıq elmləri təhsili kontekstində pedaqoji inkişafın mərhələləri sistemləşdirilir. Sessiyalar təlimin açılışından başlayaraq tədris dizaynı, interaktiv metodlar, klinik və bacarıq əsaslı tədris, qiymətləndirmə formaları və reflektiv öyrənmə kimi sahələri əhatə edir. Hər mövzu təhsilverənin səriştələrinin inkişaf etdirilməsi üçün nəzəri əsaslarla yanaşı praktik məşğələlərlə də dəstəklənir. Bu struktur həm lokal ehtiyaclara, həm də beynəlxalq standartlara uyğunlaşdırılmış çevik təlim yanaşmasını əks etdirir.

## İstifadə olunan ədəbiyyat siyahısı


1. Barrows H.S. (1993). An Overview of The Uses of Standardized Patients for Teaching and Evaluating Clinical Skills. *Academic Medicine, 6*, 443-451.
2. Boursicot K., Roberts T. (2005, June ). How To Set Up An Osce . *The Clınıcal Teacher, 2* (1), 16-20.
3. Challis M. (1999). AMEE Medical Education Guide No.11 (revised): Portfolio-based learning and assessment in medical education . *Medical Teacher, 21:4*, 370-386. doi:10.1080/01421599979310
4. Dahle L.O, J. Brynhildsen. (2002). Pros and Cons of Vertical Integration Between Clinical Medicine and Basic Science within a Problem–Based Undergraduate medical Curriculum: Examples and Experiences from Linköping. *Medical teacher, 24*(3), 280–285.
5. Ersoy F., Yaman H. (2003). *Mikroöğretim (Microteaching) ve Tıp Eğitimindeki Uygulamaları* (Cild 12(12)). TED.
6. Ersoy, F. (2003). *Tıp Eğitiminde Eğitici Eğitimi Programlarına Bir Bakış* (Cild 11(11)). TED.
7. Gordon J.et all. . (2000). Strategic Planning in Medical Education : Enhancing the Learning Environment for Students in Clinical Settings. *Medical Education, 34*, 841–850.
8. Harden R.M., Crosby J. (2000). AMEE Guide 20: The Good Teacher is More Than a Lecturer: The Twelve Roles of The Teacher. *Medical Teacher, 22*(4), 334-346.
9. Jaques, D. (2003). ABC of learning and teaching in medicine: Teaching small groups. *BMJ, 326*, 492-493.
10. Karadağ, E., Kılıç, F. S., Arslantaş D., Esen F. (2018). "İdeal Tıp Eğiticisi": Tıp Fakültesi Öğrencilerinin Bilişsel Kurguları. *Konuralp Medical Journal, 10*(3), 373-380. doi:https://doi.org/10.18521/ktd.382910
11. Kern D., Thomas P.A., Howard D.M., Bass E.B. (1999). *Curriculum Devolopment for Medical Education- A six step Approach.* London: The John Hopkins University Press.
12. Kulaç E., Sezik M., Çakır M., Yorgancıgil H.; Kulaç, E.;. (2013). Daha iyi bir tıp eğitimi için: Süleyman Demirel Üniversitesi Tıp Fakültesi Eğitim Becerileri Kursu. *20*((1)).

13. Lane J.L., Slavin S., Ziv A. (2001). Simulation in Medical Education: A Review. *Simul Gaming, 32*(3), 297–314.
14. Martin E., Prosser M., Trıgwell K., Ramsden P., Benjamin J. (2000). What Unıversity Teachers Teach and How They Teach İt. *Instructıonal science, 28*, 387–412.
15. Midik O. (2020). Tıp Eğitiminde Postmodern Profesyonellik Eğitimi: Güçlü Ve Zayıf Yönleri Postmodern Professionalism Education in Medical Education: pros and cons. *Toplum ve Hekim Dergisi, 35*(5), 378-388.
16. Patrick J. (1992). In Traning: Research and Practice. P. J. içinde, *Traning methods* (s. 317-384). London: Academic Press.
17. Spencer J. (2003). ABC of Learning and Teaching in Medicine. Learning and Teaching in The Clinical Environment. *BMJ, 326* (15), 591-594.
18. Spencer J.A., Jordan R.K. (1999). Learner Centered Approaches in Medical Education. *BMJ, 318*, 1280-1283.
19. Uysal, O. A. (2019). Tıp Fakültelerinde Tıp Eğitimi Anabilim Dalı İşlevi / The Function of Division of Medical Education. *2*(1), 1-6.
20. Van De Ridder, J.M.M., Stokking, K.M., McGaghie, W.C., Cate, O.T.T. (2008). What is feedback in Clinical Education. *Medical Education, 42*, 189-197.
21. Yılmaz N. Atilgan H. (2014). Öğretim Üyelerinin Beklenti ve Algıları Üzerinden Tıp Eğitiminde Değişim Yönetimi Ölçeği. *Tıp Eğitimi Dünyası, 13*, 1-12.
22. Yılmaz Y., Durak H.İ., Yildirim S. (2022). Enablers and Barriers of Blended Learning in Faculty Development . *Cureus, 14*(3). doi:10.7759/cureus.22853
23. WHO (2021). *Health Workforce Education and Training: A guide for educators in health professions*. Geneva: World Health Organization.
24. World Health Organization. (2021). *Global Competency Framework for Educators in the Health Professions*. Geneva: WHO.

9 789952 858747

9 789952 858792